# GƏRGİN İŞ, DÖZÜM, DƏYANƏT...

Bu gün də fəaliyyətini uğurla davam etdirən "Azərbaycan" nəşriyyatı yüksək səviyyəli mütəxəssislərin çalışdığı bir müəssisə olmaqdan başqa, texniki təchizat, avadanlıq baxımından da sovet dövründə xüsusi diqqətdə olan nəşriyyat kimi məşhur idi. Hakim partiyanın bütün təbliğat vasitələri bu nəşriyyatda yerləşdiyindən Sovet dövləti ittifaq səviyyəli bir nəşriyyat kimi onun fəaliyyətinə həmişə xüsusi əhəmiyyət verirdi. Və sovet hakimiyyətindən siyasi çevrilişdən sonra Azərbaycana bir çox dəyərli müəssisə və elm istehsalat sahələri miras qaldı. Hələlik yeni müəssisələr yaratmaq mümkün deyildi. Əlac qalırdı mövcud olanları qoruyub, saxlamağa... Doğrudur "Azərbaycan" nəşriyyatı nə qədər modern bir müəssisə olsa da, yeni dövrün tələblərinə cavab vermirdi. Çünki iqtisadiyyat çökmüşdü və hər il yenilənməli olan avadanlıqlar isə yerində sayırdı. Şəddad Cəfərov "Azərbaycan" nəşriyyatına rəhbər təyin olunandan sonra buradakı əsas fondu, xüsusilə təcrübəli kadrları qoruyub saxlamaqla yüksək ixtisaslı başqa mütəxəssislər də işə cəlb etdi. Təkcə bunlarla da iş bitmirdi. İşçilərə əmək haqqı vermək, adamların maddi rifah halını yaxşılaşdırmaq vacib idi. Pul isə yox idi. Çünki, nəşriyyata vəsait ayrılmırdı. Ölkə demək olar ki başına qalmışdı. Bir çox xarici şirkətlərlə əlaqə saxlamaq, sərfəli olanlarla iş birliyi qurmaq üçün müəyyən planlar hazırlandı. O dövrdə Türkiyədə nüfuzlu olan şirkətlərdən birinin təşəbbüsü ilə Çanaqqalada "Qarabağın qara günləri" adlı sərgi təşkil olunur. Həmin sərgidə iştirak etmək üçün Şəddad Cəfərov da dəvət alır. O, çap sexinin rəisi, təcrübəli mütəxəssis kimi Elman Kərimovu da özü ilə birgə Türkiyəyə Çanaqqala səfərinə aparır. Burada onlar həmin şirkətin fəaliyyəti ilə də maraqlanırlar. Məlum olur ki, şirkət təkcə çap fəaliyyətilə məşğul olmur. Əsas hədəf kimi çap fəaliyyətini yüksək dərəcədə saxlamaq üçün müxtəlif ölkələrdə və elə Türkiyənin özündə, müxtəlif şəhərlərdə yardımçı fəaliyyət sahələri yaradıb. Hətta avtomabil istehsal edən sahələri də var. Vacib olan təcrübədə Azərbaycana dəstək ola biləcək sahələr diqqətdə saxlanır. Ayrı-ayrı məsul adamlarla görüşlər olur. Elə Türkiyənin özündəcə Elman Kərimova göstəriş verir ki, müəyyən müqavilə layihələri də hazırlamaq üçün təşəbbüslər göstərsin. Bir sözlə direktor və çap sexinin rəisi həmin səfərdən yüksək təəssüratla qayıdır. Burada yeri gəlmişkən təcrübəli mütəxəssis kimi Elman Kərimov haqda bir neçə kəlmə də demək istərdim. "Azərbaycan" nəşriyyatı ilə əlaqələrim 1993-cü ilin sentyabr ayından başlanır. Çox istedadlı jurnalist Nurlana Telmanqızı ilə Lökbatanda tanışlıqdan sonra, onun baş redaktoru olduğu "Qaradağ" qəzetinin bu nəşriyyatda çapı ilə mən məşğul olurdum. Elman Kərimovla da elə həmin dövrdə tanışlığım başladı. Sakit, təmkinli, eyni zamanda ünsiyyətcil bir insandır. Çox keçmədi ki, aramızda dostluq münasibəti də yarandı. Məhiyyəddin adlı müavininə mənim haqqımda xoş sözlər dedi. Bizim qəzetin çapını diqqətdə saxlamağı tapşırdı. Bu təcrübəli mütəxəssislərlə birgə işləmək mənə çox şey verdi. İş prosesində baş verən hər hansı bir xətanı da hətta bizim təqsirimizdən olmuş olsa belə insani münasibətlərlə aradan qaldırırdılar. Sonralar "Həyat" qəzetində çalışanda da aramızdakı səmimi ünsiyyət davam elədi. 1999-cu ildə (oktyabr ayında) "Kredo" qəzeti fəaliyyətə başlayanda çoxları məsləhət görürdü ki, çap işlərini digər özəl mətbəələrdə aparım, ancaq mən "Azərbaycan" nəşriyyatındakı dostlarımla münasibətimə rəğmən buradan ayrılmadım. Bir dəfə gecə saat birdə mətbəəyə gəldim. Bir yazıda texniki səf olduğundan şübhələnmişdim. Elmanla sexin qarşısında rastlaşdıq. Çox isti görüşdük. Heç mən ağzımı açmamış özü dedi: "Ay müəllim, indi sənin istirahət vaxtındır, bizim isə iş". Mən ona narahatlığımın səbəbini bildirdim. - dedi: "Bilirəm düzəltmişik, mübahisəli bir şey olsaydı, səni harda olsa tapdırardım". Zənnimcə, bu kiçik xatirə qeydləri işə necə məsuliyyətli yanaşmağın nümunəsinə ən yaxşı cavabdır.

Ömrümün az qala 27 ilini bu nəşriyyatın divarları arasında keçirməyimə indi də peşman deyiləm. İndi "Azərbaycan" nəşriyyatının çap sahəsində həmin dövrün təcrübəli mütəxəssisləri yenə çalışır. Qəhrəman, Zirəddin və digərləri - kompüter mütəxəssisləri Cəbrayıl, Məhəmməd, Nüsrət, Eynulla ... zaman ötsə də, fədakar əməl sahibləri kimi



mənim üçün unudulmazdırlar. Sonralar "Azərbaycan" nəşriyyatına yeni qüvvələr - bir çox gənclər gəliblər. Həmin gənclərin ağıllı davranışlarında, məsuliyyətli çalışmalarında vaxtı ilə nəşriyyatda can qoymuş mütəxəssislərin ən yaxşı ənənələrinin yaşarılığını görürəm.

Demək istəyirəm ki, Şəddad Cəfərov haqqında bu qeydləri yazanda yazıçı Sevda Əlibəylinin kitabında Elman Kərimovun adına rast gəlməyim məni keçmişə qaytardı. Demək Şəddad müəllim yaxşı mütəxəssisin qədrini bilməyin, kimi harda işlətməyin yerini yaxşı bilirdi. Və Elman Kərimovla birgə səfərin mahiyyətində də elə bu münasibət dayanırdı.

Şəddad Cəfərov təbiət etibarı ilə maraqlı adamdır. O istənilən vaxt, istənilən məqamda vacib olanı qeyri vacibdən ayıra bilir. Hər hansı söhbətdən vacib ideyanı duyur, dəyərləndirir. Təyyarədə baş verən maraqlı bir məqamı Sevda Əlibəyli də öz kitabında qeyd etmişdir: "Bakıya qayıdarkən təyyarədə pedaqoji elmlər doktoru, professor Yəhya Kərimovla yanaşı oturur. Professorun nədənsə narazı olduğu narahat baxışlarından oxunur. Şəddad bunun səbəbini soruşur. Professor latın qrafikalı yeni "Əlifba" dərsliyini Türkiyədə çap etdirmək istədiyini, lakin nail ola bilmədiyini söyləyir. Səbəbi də odur ki, bəzi Azərbaycan hərflərini bəzi türk hərflərilə əvəz etmək istəyirlər. Müəllif isə razılaşmayıb. Şəddad bu söhbəti diqqətlə dinləyib deyir:

-Narahat olmağa dəyməz. Mən "Əlifba" dərsliyini sentyabr ayının birinədək çap edib sizə verə bilərəm.

Professor eşitdiklərinə inana bilmir. Axı avqustun ortalarıdır. Sentyabra cəmi 15-16 gün qalır.

Şəddad Cəfərov Yəhya Kərimova söyləyir ki, Sabir Rüstəmxanlı Yəhya Kərimovun məktubunun üstünü yazır. Dərsliyin çapı ilə əlaqədar nəşriyyatda elə həmin gündən gərgin işlər başlanır. Avqustun sonunadək "Əlifba" dərsliyi 130 min sayda çap edilib məktəblilərin ixtiyarına verilir". Sonralar professor Yəhya Kərimov "Əlifba" dərsliyinin sanki möcüzə sayəsində nəşri ilə bağlı müxtəlif tədbirlərdə həyəcanlı təəssüratlarla danışır, təkrar-təkrar Şəddad Cəfərova minnətdarlığını bildirirdi. Bununla belə "Əlifba" müəllifinin çox sonralar "Azadlıq" qəzetinə verdiyi müsahibədə həmin hadisəni xatırlatması göstərir ki, əslində o vaxt "Əlifba"nın nəşri demək olar ki mümkün deyilmiş. Çünki Türkiyədə də professora vaxtın azlığını əsas gətirib "Yox" demişdilər. Professor "Azadlıq" qəzetinə bir daha təkrar edirəm ki, çox sonralar (12.05.2006) verdiyi müsahibədə deyirdi: "Dərs ili yaxınlaşırdı. İstanbula uçdum, Turan Yazqanla görüşdüm. O bildirdi ki, mənim etdiyim korrektə ilə dərsliyi çap etmək olmaz". Avqustun 12-də dərsliyin maketini və şəkilləri götürüb Bakıya döndüm. Təyyarədə təsadüfən "Azərbaycan" nəşriyyatının direktoru Şəddad müəllimlə tanış oldum. Halımın nə üçün pərişan olduğunu soruşanda başıma gələnləri nəql etdim. Məni sakitləşdirib ayın 14-də görüşməyi təklif etdi. Görüşdük. Dediyi kimi bütün işlər həllini tapdı.

14 gündən sonra "Əlifba" dərsliyi biliciləri sevindirdi.

Müstəqil Azərbaycanın latın qrafikalı "Əlifba" dərsliyi məhz respublikamızın ilk və yeganə alimi Şəddad Cəfərovun imzası ilə nəşr olundu". Şəddad Cəfərov söhbət zamanı bildirdi ki: "həmin "Əlifba" dərsliyinin ilk iki nüsxəsini əlimə götürəndə minlərlə körpə uşağın sevincini özüm də yaşadım. Həmin iki nüsxənin birini müəllifə - professor Yəhya Kərimova göndərdim, digərini isə əbədi xatirə kimi özümdə saxladım". İnsan öz işindən, əməlindən fərəh duyanda belə olur. O, daxilən, mənən qürurlanır. Bəlkə də insanı yaşadan elə həyatının belə dəyərli məqamlarıdır. Həyatın belə məqamlı anları insanın ömrünə həmişə ömür calayır. Hətta həyatın qaranlıq tərəfləri olsa belə onu işıqlandırır.

Şəddad Cəfərovun həyatında riskli, cəsarətli addımlar çox olub. Çünki, gördüyü işi ədalətli hesab edib. İnsan öz əməli fəaliyyətində ədalətli olursa, o mənən güclü olur, yenilməz olur. Başqalarının gözündə ləyaqət timsalına çevrilir.

Heç kimə sirr deyil ki, Şəddad Cəfərovun da şahidi olduğu 90-cı illərin əvvəllərində siyasi mübarizə cəbhəsinin adamlarından bir çoxu Heydər Əliyevin əleyhidarı idi. Onun siyasi arenada görünməsindən belə vahimələnirdilər. Belə bir məqamda Şəddad Cəfərova Naxçıvandan bir kitabın sifarişi gəlir. Bu barədə mənbədə oxuyuruq: "Elə həmin ərəfədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri işləyən Heydər Əliyevin adından sifariş gəlir. Mirzə Əsgərov, Fərhad Cəfərquliyev və Akif Axundovun tərtib etdikləri "Naxçıvan yaşayır, döyüşür..." kitabını nəşriyyata gətirirlər. Şəddad Cəfərov sifarişi məmnuniyyətlə qəbul edir. Hətta Şəddadın təşəbbüsü ilə kitabın üz qabığında Heydər Əliyevin şəkli də dərc olunur.

Kitab Heydər Əliyevə çatanda Şəddad Cəfərova minnətdarlığını bildirməyi tapşırır. Və onu Naxçıvana dəvət edirlər. Şəddad öz vəzifə borcunu yerinə yetirdiyini söyləyir və dəvətə görə təşəkkürünü bildirir.

Lakin kitabın nəşrindən sonra müəlliflərlə yanaşı nəşr üçün bu cəsarətli addımı atan Şəddad Cəfərov da çətinliklərlə üzləşir". Bu çətinliklərin isə nə demək olduğunu həmin dövrün şahidləri yaxşı bilir. Müxtəlif zənglər, təhdidlər... amma bütün bunların heç birisi Şəddad Cəfərova öz əməlində zərrə də olsun peşmançılıq hissi yaratmadı. Çünki o yaxşı bilirdi ki, Azərbaycanın yaxın gələcəyi Heydər Əliyevlə bağlı olacaq. Hədsiz dərəcədə xaosun, anarxiyanın qarşısını ancaq o ala bilərdi. Bütün bunların fonunda Heydər Əliyevə dəxli olan kitabın yüksək rəğbətlə, hətta kitabın üzərində ulu öndərin şəklini vurmaqla çap etmək, təbliğat arenasına buraxmaq... çox böyük iş idi. Əlbəttə, Heydər Əliyev özü də həmin dövrdə bu işin Şəddad Cəfərov üçün necə böyük məsuliyyət yaratdığını yaxşı bilirdi: Sevda Əlibəylinin təbirincə desək, sonralar mühasibələrindən birində "İki sahil" qəzeti həmin çətinlikləri belə açıqlayır: "O dövrdə Heydər Əliyevin şəklini çap etmək çox təhlükəli olsa da, mən dahi siyasətçinin şəklinin çap olunmasından qorxmadım. Açığı, Prezident Aparatının tabeliyində olan bir nəşriyyatda bu kitabı çap etmək heç də asan deyildi. Ona görə də kitab çap olunduqdan sonra müxtəlif təzyiqlərə məruz qaldım. Lakin haqq işinin təbliğatçısı olduğuma görə bütün bu təzyiqlərə fəxarətlə dözürdüm".

Həmin dövrdə Ş.Cəfərov ümumi təzyiqlər qarşısında tək deyildi. Ona mənən dayaq olanlar da vardı. Xatirə şəkilləri arasında bir foto diqqətimi cəlb etdi. Nəşriyyat məsələləri ilə bağlı vacib müzakirə gedir. Kimlərsə tənqid etməyə, hətta ittiam etməyə də bəhanə axtarır. Amma Ş.Cəfərov, B.Vahabzadə, Kamran Rəhimov, Şahmar Əkbərzadə və digər görkəmli ziyalılarla birgədir. Məclisdə, süfrə arxasında belə ölkənin taleyi haqqında fikir bölüşür, müəyyən məsələləri müzakirə edirlər.

Ş.Cəfərov həmin günləri tez-tez xatırlayır: İş çətin idi. Əməli fəaliyyətlə siyasi mübarizənin qarşıdurması bəzən çətin işi bir az da qəlizləşdirirdi.

Dözüm və dəyanət olan yerdə bütün çətinliklər dəf oluna bilir.

Zaman ötüb keçir, xatirələr qalır. Xatirələr isə şirin həyat qaynağıdır. Əgər onun içərisində həyatın mənalı tərəfləri ehtiva olunursa...

*Əli Rza XƏLƏFLİ*

*17.05.2020*